

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 noyabr 2022-ci il №89 (2700) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Noyabrın 16-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

ABŞ dövlət katibi bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-ın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev dövlət katibi Antoni Blinkenin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasının və ABŞ-ın bu istiqamətdə göstərdiyi səylərin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Bununla belə, dövlətimizin başçısı qeyd edib ki, bu istiqamətdə göstərilən səylərə və aparılan danışıqlara baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən son günlərdə səsləndirilən ziddiyyətli bəyanatlar iki ölkə arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin irəli aparılmasına mənfi təsir göstərir.

Antoni Blinken Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın olduğunu qeyd edərək ABŞ-ın bu istiqamətdə səylərini davam etdirəcəyini bildirib.

Telefon danışığı əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə növbəti görüşün keçirilməsi və etimad quruculuğu tədbirlərinə dair fikir mübadiləsi aparılıb.

* * *

Noyabrın 17-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında dövlət başçıları iqtisadi-ticari və enerji sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

### Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Ermənistan sülh istəyirsə, çox təhlükəli ritorikadan əl çəkməlidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərindən daxil olduğu nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident **İlham Əliyev** dedi: Xoş gəlmisiniz, böyük nümayəndə heyəti ilə görüşmək o deməkdir ki, müzakirə olunmalı çox məsələ var.

**Dirk Şuebel**: Cənab Prezident, bizi qəbul etdiyinizə görə çox təşəkkür edirik. Bizimlə görüşmək üçün vaxt ayırmağınız bizim üçün şərəfdir. Mən qısaca olaraq özümü, həmkarlarımı və nümayəndə heyətini təqdim etməklə başlaya bilərəm. Mənim adım Dirk Şuebeldir. Mən Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə yeni təyin olunmuş xüsusi nümayəndəsiyəm. Lakin bu, Azərbaycana ilk səfərim deyil, ötən illər ərzində əvvəlki vəzifələrdə dəfələrlə burada olmuşam və yenidən burada olduğum üçün şadam. Biz buraya bir neçə üzv dövlətin Şərq Tərəfdaşlığı üzrə xüsusi nümayəndələrindən, səfirlərindən ibarət nümayəndə heyəti ilə gəlmişik.

Bizim hamımız hazırkı vəziyyətdə Şərq Tərəfdaşlığının həyata keçirilməsi, ola bilsin ki, Şərq Tərəfdaşlığının yenilənməsi, müasirləşdirilməsi üçün xüsusi nümayəndə təyin olunmuşuq. Bilirik ki, hazırkı geosiyasi vəziyyətdə yeni ideyalara, yeni stimullara, xüsusi yanaşmalara ehtiyac var, bizim burada olmağımızın bir səbəbi də budur. Bunun Sizin nöqteyi-nəzərinizdən necə göründüyünü dinləmək istəyirik: nəyi daha yaxşı edə bilərik, Azərbaycanla əməkdaşlığımızda xüsusi nələri edə bilərik?

Düşünürəm ki, son bir neçə ildə əməkdaşlıq çox yaxşı inkişaf edib. Biz bir sıra müstəvidə irəliləyirik. Sözsüz ki, enerji sahəsi. Lakin düşünürəm ki, siyasi müstəvidə də biz bir çox səylər göstərmişik. Prezident Mişel çox fəaldır, Siz dəfələrlə görüşmüsünüz və Siz onun, eləcə də bizim hamımızın, Avropa İttifaqının ədalətli vasitəçi olduğunu görmüsünüz. Bilirsiniz ki, bizim gizli gündəliyimiz yoxdur, xüsusi gündəliyimiz yoxdur. Biz, sadəcə, yaxşı əməkdaşlıq etmək və əməkdaşlığımızı inkişaf etdirmək istəyirik. Bir çox dialoqlar - təhlükəsizlik sahəsində və bir sıra başqa sahələrdə dialoqlar qurulub. Biz daha çox məsələni nəzərdən keçirməyə hazırıq. Lakin sözsüz ki, əsas məsələni, münaqişəni unutmaq istəmirik.

Cənab Prezident, sirr deyil ki, biz Ermənistandan gəlmişik. Ermənistanda olduq. Deməliyəm ki, orada yaxşı danışıqlar apardıq. Düşünürəm ki, Ermənistanda aldığımız əsas mesaj ondan ibarətdir ki, Ermənistan da sülhün əldə olunmasında maraqlıdır. Biz, həmçinin burada da Sizin bunda maraqlı olduğunuzu eşidirik. Ona görə də biz davamlı sülhə öz töhfəmizi verə bilərik ki, bunu birdəfəlik kənara qoyaq, Cənubi Qafqaz regionunun qonşu ölkələrlə birlikdə çiçəklənməsi istiqamətində hərəkət edək. Düşünürəm ki, bizim çatdırmaq istədiyimiz əsas diləyimiz bu olacaq.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Ordusunda nümunəvi tabor taktiki təlimi keçirilib



2022-ci ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda nümunəvi tabor taktiki təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, real döyüş şəraitinə uyğunlaşdırılmış təlimin planına uyğun olaraq, əldə edilən kəşfiyyat məlumatına əsasən, şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyənləşdirilib.

Mümkün təxribatın qarşısını almaq məqsədilə daimi dislokasiya məntəqəsini tərk edən tabor cəmləşmə rayonu istiqamətində hərəkət edib və şərti düşməni zərərsizləşdirərək ilkin tapşırığı müvəffəqiyyətlə yerinə yetirib.

Növbəti mərhələdə müşahidə postları qurulub və bölmələr tərəfindən yaşayış məntəqələrində axtarış əməliyyatları icra olunub.

Təlimin keçirilməsində əsas məqsəd taborun döyüşə hazırolma vəziyyətinə gətirilməsi zamanı qərargah fəaliyyəti ilə bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirmək, eləcə də komandirlərin döyüşü idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaqdır.

Yüksək peşəkarlıqla görülən fəaliyyətlər nəticəsində təlimdə qarşıya qoyulmuş bütün məqsədlərə nail olunub.

## “Ən yaxşı tank bölüyü” adı uğrunda yarış keçirilir



2022-ci ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarında "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən yarışda tank bölmələrinin döyüş hazırlığı yoxlanılır.

Komandalar sürücülük, gecə və gündüz vaxtı atış, fiziki hazırlıq və digər çalışmalar üzrə məqbulları yerinə yetirirlər.

Noyabrın 24-dək davam edəcək yarışın yekununda "Ən yaxşı tank bölüyü" adına layiq görülən heyət müəyyən ediləcək.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ermənistan sülh istəyirsə, çox təhlükəli ritorikadan əl çəkməlidir

(Əvvəli 1-ci səhifədə)

İkitərəfli məsələlərə gəlincə, sonuncu məsələ bizim sazişimizdir. İstərdik, Sizdən xahiş edək ki, bunu həyata keçirmək üçün daha bir təkan verək. Bildiyiniz kimi, razılaşdırılası çox məqam qalmayıb. Ona görə də əgər biz ikitərəfli sazişi razılaşdıra bilsək, bu, əlbəttə ki, ikitərəfli əməkdaşlığımızda daha bir mühüm addım olacaq. Ümumilikdə isə biz burada dinləyici qismindəyik. Böyük məmnuniyyətlə Sizin fikirlərinizi, ideyalarınızı dinləyərik. Biz onları müvafiq olaraq paytaxtlarımızda öz rəhbərliklərimizə çatdıracağıq. Ümumilikdə isə biz, sadəcə, burada olmağa şadıq və bizi qəbul etdiyinizə görə minnətdarıq, cənab Prezident.

Prezident **İlham Əliyev**: Təşəkkür edirəm, çox sağ olun. İlk növbədə, gəldiyinizə görə təşəkkür edirəm. Mən bu səfəri yüksək qiymətləndirirəm. Düşünürəm ki, bu, gələcəkdə görməli olduğumuz işlərin düzgün qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bildiyiniz kimi, Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın məzmunu olduqca genişdir. Biz müxtəlif sahələrdə - siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımızın səviyyəsindən çox məmnunuq. Əlbəttə, Şərq Tərəfdaşlığına gəldikdə, bu proqramın əvvəlindən Azərbaycan onu güclü şəkildə dəstəklədi və Zirvə görüşləri daxil olmaqla müxtəlif tədbirlərdə fəal iştirak etdi.

Hazırda isə sizinlə razıyam ki, onun müasirləşdirilməsinin və görülən işlərin nəzərdən keçirilməsinin vaxtıdır. Çünki bu proqramın yaradılmasından on ildən çox keçir və Şərq Tərəfdaşlığına üzv ölkələr öz seçimlərini ediblər. Bəziləri Assosiasiya Sazişini imzalayıb, digərləri Avrasiya İqtisadi İttifaqına üzv olub. Azərbaycan yeganə ölkədir ki, heç bir formata qoşulmayıb. İqtisadi göstəricilərimiz, siyasi və iqtisadi sabitlik və əlbəttə ki, ərazilərimizin azad olunması xarici siyasətimizin praqmatizm üzərində qurulduğunu və həmdəfə hesablanmış olduğunu nümayiş etdirir. Başlıca hədəf isə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi idi və biz buna iki il əvvəl nail olduq.

Beləliklə, biz Şərq Tərəfdaşlığı ilə bağlı yeni imkanların nədən ibarət olduğunu nəzərdən keçirməliyik. Bizə gəldikdə, biz bu proqramı və bu platformanı üzv ölkələr arasında əməkdaşlıq deyil, Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirmək üçün əlavə imkan hesab edirik. Çünki Şərq Tərəfdaşlığına üzv olan digər beş ölkə ilə bizim fərqli münasibətlərimiz var. Bizə isə Avropa Komissiyası ilə əlavə əməkdaşlıq mexanizminin əldə edilməsi vacib idi. İndi isə sizin də qeyd etdiyiniz kimi, yeni geosiyasi şəraitdə bunu yenidən nəzərdən keçirmək lazımdır.

Bizə gəldikdə, biz, eyni zamanda, Avropa İttifaqına üzv olan dövlətlərlə ikitərəfli əsasda fəal işlədik. Üzv ölkələrin doqquzu ilə biz strateji tərəfdaşlıq haqqında bəyanat, yaxud saziş imzalayıb və ya qəbul etmişik. Bu isə üzv dövlətlərin üçdəbiridir. Hesab edirəm ki, Azərbaycan Şərq Tərəfdaşlığı qrupuna daxil olan nadir ölkədir ki, öz strateji hədəfinə həqiqətən nail olub. Beləliklə, bu, yaxşı platformadır və biz onu Avropa İttifaqı ilə sazişimizin müzakirəsi üçün təməl hesab edirik. Saziş üzərində iş uğurla, lakin ləng gedir. Uğurla gedir ona görə ki, sazişin bəndlərinin 90 faizi razılaşdırılıb. Ləng gedir ona görə ki, orada hər iki tərəfdən siyasi iradə tələb edən və necə deyərlər, ilişib qaldığımız məsələlər var. Azərbaycanda bununla bağlı müəyyən narahatlıqlar var, çünki bizim imzaladığımız və ya imzalamağı planlaşdırdığımız hər hansı saziş bizə və tərəfdaşlarımıza əlavə fayda verməlidir. Biz orta və ya uzunmüddətli perspektivdə iqtisadi çətinliklər yarada biləcək hər hansı bir sənədi imzalaya bilmərik. Yəni, ləngiməyə səbəb olan bəndlər iqtisadiyyat, ticarət və bəzi digərləridir. Mən prosesin sürətləndirilməsi ilə bağlı nümayəndə heyətimizə artıq təlimat vermişəm və hesab edirəm ki, sazişin yekunlaşdırılması üçün fürsət var. Zənnimcə bu, bizim əməkdaşlığımız üçün daha bir mühüm nailiyyət olacaqdır. Biz, əlbəttə ki, enerji inkişafı və enerjinin şaxələndirilməsi layihələri haqqında da danışacağıq və müzakirələrin nədən ibarət olduğunu biləcəyik.

Siz Ermənistana səfərinizi və orada Ermənistan rəhbərliyindən sülh mesajı aldığınızı qeyd etdiniz. Biz işğalın davam etdiyi bütün illər ərzində bu mesajları eşitmişik. Lakin onlar səmimi deyildi. Biz də sülh arzulayırdıq, lakin torpaqlarımızı geri istəyirdik. Onlar isə torpaqları geri qaytarmadan sülh istəyirdilər. Fərq bunda idi. Beləliklə, biz münaqişəni güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə həll etməli olduq. Mən bu gün onların sülh haqqında danışmasını bir növ manipulyasiya hesab edirəm. Çünki onlar həqiqətən sülh arzulayırdılarsa, bizim təklifimizə cavab verərdilər. Müharibə başa çatdıqdan dərhal sonra sülh sazişi üzərində danışıqlara başlamağı təklif edən biz olmuşuq. Bu, dünya tarixində nadir hallardandır ki, ərazisi uzun illər işğal altında olan, ədaləti güc yolu ilə bərpa edən, düşməni məğlub edərək torpağından qovan ölkə sülh təklif etsin. Biz Ermənistan tərəfindən ərazilərimizin dağıdılması və viran qoyulması, azərbaycanlıların əzab-əziyyət çəkməsinə baxmayaraq, sülh təklif etdik.

Biz məlum beş prinsipdən ibarət sülh və bir növ çərçivəni təklif etdik. Məhz biz delimitasiya komissiyasını yaratmağı təklif etdik. Məhz biz münasibətlərin normallaşdırılması üçün əsasları müəyyən etməyə çalışdıq. Ermənistan bu prosesin ilkin mərhələsində çox tərəddüd edirdi. İndi isə onlar sülh haqqında danışırlar, lakin biz onların anlamında sülhün nə olduğunu anlamırıq. Bununla belə, bizim mövqe çox aydındır. Bu, dəfələrlə ictimaiyyət qarşısında, o cümlədən mənim Avropa Komissiyasının rəhbərliyi və normallaşma prosesində iştirak etmiş, hazırda iştirak edən ölkələrin, yəni, Birləşmiş Ştatların və Rusiyanın liderləri ilə kontaktlarım zamanı qeyd olunub. Bizim iki yolumuz olmalıdır: Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması prosesi və həmçinin hüquqlar və təhlükəsizlik baxımından Azərbaycanda, Qarabağda erməni azlığına aid məsələlər.

Elə dünən dövlət katibi Blinken ilə mənim telefon danışığım olub. Biz bu haqda bir daha danışdıq. Biz tam anlayırıq ki, iki yol olmalıdır və onlar bir-birinə qarışmalı deyil. Lakin Ermənistandan gələn bəyanatlar çox ziddiyyətlidir. Onlar bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altında imza da atırlar. Bu, bütün ərazimizin suverenliyi deməkdir. Hamımız suverenliyin nə olduğunu anlayırıq. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik. Buna görə bizə Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır.

Bir sözlə, bir daha deyirəm ki, biz onların əməllərini sözlərlə deyil, addımlarla ölçməliyik. Çünki onların dedikləri sözlər etdikləri əməllər və ya planları ilə ziddiyyət təşkil edir. Bununla bağlı, bilmirəm, siz Ermənistan rəhbərliyindən birbaşa cavab almısınız, yoxsa yox. Mən şübhə edirəm, çünki onlar bu ikimənalılığı saxlamaq istəyir və bu isə heç də fayda gətirmir. Eyni zamanda, əgər bu ölkə sülh istəyirsə, onda o, çox təhlükəli ritorikadan əl çəkməlidir. Bu yaxınlarda Ermənistan rəsmiləri Azərbaycanı İŞİD və "Əl-Qaidə" ilə müqayisə etmişdilər. Fikrimcə, bu, çox təhlükəli ritorikadır. Birincisi, onların özləri İŞİD və "Əl-Qaidə" kimi hərəkət etmişdilər. Avropa İttifaqının səfirləri azad edilmiş ərazilərə baş çəkmişdilər. Ermənilər tarixi və dini irsə İŞİD və "Əl-Qaidə"nin eynilə etdiyi kimi yanaşmışdılar. Biz yox. Onlar. Onlar terror aktları törədiblər. Onlar soyqırımı törədiblər. Onlar bizim məscidləri uçurublar. Biz yox.

Lakin cənab Paşinyan bu sözləri istifadə edərkən bilməlidir ki, biz bunu eşidirik. O, bizim reaksiyamızın necə olacağı barədə düşünməlidir. Bir sözlə, məsələ asan deyil. Hesab edirəm, vacib odur ki, Ermənistan, əslində, istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu, alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Biz buna hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni, kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni, Azərbaycanın bu işdə yardımçı ola bilən hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır.

* * *

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, ölkəmizin regional nəqliyyat-logistika qovşağı olması vurğulandı. Söhbət zamanı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

**AZƏRTAC-ın materialları əsasında**



# Hərbi hissələrin komanda-qərargah təlimləri keçirilir

2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, hərbi hissələrin qərargah zabitlərinin iştirakı ilə kompüter dəstəkli komanda-qərargah təlimləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlərdə bölmələrin qarşılıqlı fəaliyyəti və qərargahların vahid idarəetmə orqanı kimi uzlaşması yoxlanılır, qəbul edilmiş qərarlara dair tapşırıqlar kompüter üzərində icra edilərək qiymətləndirilir.

Vətən müharibəsi, "Qisas" əməliyyatı, eləcə də Azərbaycan Ordusunun həyata keçirdiyi digər uğurlu əməliyyatlar zamanı qazanılan təcrübədən də təlimlərdə geniş istifadə olunur.

Komanda-qərargah təlimlərinin keçirilməsində əsas məqsəd komandirlərin və qərargah zabitlərinin döyüş əməliyyatları planlarının hazırlanması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə yanaşı, onların çevik qərar qəbuletmə bacarıqlarını, eləcə də döyüşü idarəetmə qabiliyyətini artırmaqdan ibarətdir.



# Ordumuzda görülən işlərin əsas məqsədi regionda sülhü, sabitliyi təmin etməkdir



Azərbaycan bu gün apardığı uzaqgörən, düşünülmüş, milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunmasında təxirəsalınmaz və sistemli addımlar atmaqdadır. Həmçinin xarici siyasətin əsas istiqamətlərindən biri də dünyada sülhyaratma prosesində iştirakıdır ki, dünyanın mühüm beynəlxalq təşkilatları və aparıcı dövlətləri ilə keçirilən müxtəlif görüşlərdə öz mövqeyimiz aşkar bəyan edilir. Ali Baş Komandanın qətiyyətindən, xalqın etimadından güc alan ordumuzun daha da güclənməsi istiqamətində mühüm işlərə imza atılır. Belə ki, güclü ordu, güclü dövlət deməkdir. Əsası müasir standartlara və inkişafa söykənən ordu quruculuğunun inkişafı prosesinin mühüm istiqamətlərindən biri dünyanın hərbi güc mərkəzi olan qurum və ölkələrlə yaradılan əməkdaşlıq və tərəfdaşlıqlardır. Haqq savaşımız başa çatsa da, ordumuzun daha da gücləndirilməsi və günün tələbləri çərçivəsində qurulması istiqamətində müxtəlif tədbirlər planı həyata keçirilir. Məlumdur ki, Azərbaycan əsgərinin döyüş qabiliyyətini və Vətəni müdafiə bacarığını yüksəldən başlıca amillərdən biri ordumuzda keçirilən müxtəlif təyinatlı təlimlərdir. Belə ki, hər il təsdiq olunmuş plana əsasən, hərbi qulluqçularımız həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda təlim-məşq toplanışlarında iştirak edir, hərbi bilik və bacarıqlarını daha da təkmilləşdirirlər. "Təlimdə tökülən tər, döyüşdə qazanılan zəfər" məsəli əbəs yerə dillər əzbəri deyil. Çünki təlim əvvəli və sonu məlum olan kiçik döyüş mühitidir. Təlim meydançası isə şəxsi heyətin xidmətə qədər və xidmət müddətində mənimsədiyi nəzəri biliklərin, praktiki icra nöqtəsidir. Hərbi qulluqçu məhz təlim zamanı müharibə və savaş sözlərinin mahiyyətini daha düzgün dərk edir. Əsgər üzərinə düşən məsuliyyət hissini dərindən anlamağa başlayır. Bir sözlə, təlim prosesi şəxsi heyətin döyüş ruhunun artırılması, ona təhkim olunmuş silah və texnikadan lazımi səviyyədə istifadə olunması üçün zəruri tədbirlərdəndir.

"N" hərbi hissəsinin şəxsi heyətinin iştirakı ilə keçirilən nümunəvi tabor taktiki təlimdə iştirak etdik. Bölmənin hərbi qulluqçuları komandirlərin rəhbərliyi altında qarşıya qoyulan tapşırıqları icra edirdilər. Zabit Samir Yusubov ilə söhbətləşdim. O, taktiki təlimdəki fəaliyyətlərlə bağlı bizi məlumatlandırdı. "Bugünkü təlim haqqında öncə onu qeyd etməliyəm ki, keçirilən dərslərdə nəzəri vərdişləri mənimsəyən şəxsi heyət, bilik və bacarıqlarını burada məhz təlim nöqtəsində sınaqdan keçirir. Nəzəri cəhətdən öyrənilənlər əyani surətdə tətbiq edilərək daha dərindən mənimsənilir. Real döyüş mühitinə uyğun təşkil olunmuş təlimin plan ssenarisinə əsasən, əldə edilən kəşfiyyat informasiyalarına görə düşmənin diversiya qrupunun təxribat törədəcəyi ərazi müəyyənləşdirilib. Planla təlim zamanı bölmə plan-ssenariyə əsasən, yaşayış məntəqələrinin mühafizəsi, axtarış əməliyyatları, konvoy və müşahidə fəaliyyətlərinin təşkil olunması, humanitar yardımın göstərilməsi və hücum taktiki fəaliyyətini icra etdi. Sevindirici haldır ki, hərbi qulluqçularımız tapşırıqları dəqiqliklə yerinə yetirib və yuxarı komandanlıq da bölmənin göstərdiyi nəticədən və döyüş hazırlığından razı qalıb".

Növbəti müsahibim baş leytenant Orxan İsmayılov oldu. İcra olunan fəaliyyətlər haqqında ətraflı məlumat verən zabit bildirdi ki, mütəmadi keçirilən təlimlər şəxsi heyətin xidməti fəaliyyətinin təşkilində mühüm rol oynayır. "Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra hər zaman qonşu dövlətlərlə və dünya ölkələri ilə qurulan münasibətlərin sülh, qarşılıqlı etimad üzərində qurulmasının tərəfdarı olub. Bugünkü təlimdə missiyalar zamanı mülki əhali ilə davranış, mülki avtomobillərin yoxlanış qaydaları, hərbi əsirlərlə rəftar, ilk tibbi yardımın göstərilməsi prosesi və digər fəaliyyətlər üzrə şəxsi heyətdən normativlər və praktiki tapşırıqlar üzrə qiymətləndirmələr aparıldı. Tapşırıqların qüsursuz və operativ şəkildə yerinə yetirilməsi hər birimizin ovqatına müsbət təsir edir. Və göstərilən nəticələrə görə deyə bilərik ki, məşğələlər səmərəli keçib və öyrədilən mövzular dərindən mənimsənilib".





Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Emil Məmmədov da taktiki təlimdə iştirak edən hərbi qulluqçularımızdan biri idi. Uzun illərdir ordu sıralarında xidmət edən Emilin, bacarığı və peşəsinə olan ürəkdən bağlılığı sözlərindən hiss olunurdu. Söhbət zamanı təcrübəli çavuş qeyd etdi ki, təsdiq olunan plana əsasən, hazırlıq tədbirləri kompleks şəkildə yerinə yetirilir. "Regionda sabitliyin qorunub saxlanmasında, təhlükəsizliyin təmin olunmasında əsas rol oynayan Azərbaycan Ordusu hər zaman ona olan etimadı və inamı layiqincə doğrultmağı bacarıb. Bu gün də qarşımızda dayanan əsas vəzifə, regionda sülhün və sabitliyin təmin olunmasıdır. Təcrübəli komandirlərimizin rəhbərliyi altında qazandığımız nəzəri bilikləri təlim mərkəzlərində praktiki olaraq icra edirik. Şəxsi heyətin təlim-məşqlərdə nümayiş etdirdiyi peşəkarlıq komandirlərimiz tərəfindən yüksək qiymətləndirilir və onların şəxsi heyətə olan etimadı bizi gələcək uğurlara aparır.

Taktiki təlimdə iştirak edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Mayıl Məmmədov bildirdi ki, haqq savaşından üzüağ çıxan rəşadətli ordumuzun dünya aparıcı ordularının standartlarına uyğun qurulması fonunda görülən işlər bu gün də uğurla davam etdirilir. "Son vaxtlar dünyanın qlobal gücləri arasında artan ixtilaflar, qarşılıqlı əlaqələrdə yaranan gərginliklər, pandemiyanın və savaşın qoyduğu izlər və ümumi müxtəlif qəbildən olan mənfi proseslər dövlətimizin hərtərəfli və dinamik inkişafına heç bir mənfi təsir göstərməyib. Sevindirici haldır ki, ordumuz aparılan mühüm quruculuq işləri sayəsində bu gün dünyanın aparıcı orduları sırasında mövqeyini daha da möhkəmləndirir. Ölkəmizin döyüş bacarığı və özünümüdafiə qabiliyyəti durmadan artır. Bölməmizin də öz növbəsində üzərinə düşən əsas vəzifələrdən biri pre-konflikt, konflikt və post-konflikt dövründə beynəlxalq hüquq normasını və humanizm dəyərlərini lazımi şəkildə qoruyub saxlamaqdır".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Təbriz Cəfərov da söhbət əsnasında bildirdi ki, ordu quruculuğu bizdən bilikli, iradəli və nizamlı olmağı tələb edir və bu keyfiyyətlər vəhdət təşkil edəndə biz daha da güclü oluruq. Bu gün qalib və müasir tələblər çərçivəsində daha da inkişaf etdirilən ordumuzda şərəflə, vicdanla xidmət edirik. Ölkəmizin təhlükəsizliyinin qarantı onun rəşadətli ordusu, ordumuzun uğurunun təminatçısı onun əsgəridir".

Bu gün regionda yaranan reallıqlar və faktlar onu təsdiqləyir ki, Azərbaycan regional təhlükəsizliyin və sabitliyin tərəfdarıdır və Azərbaycan Ordusu bu məsələdə mühüm rola sahibdir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Döyüş yolum Şuşada başa çatdı

*İkinci Qarabağ müharibəsində işğalçılara qarşı cəsarətlə vuruşduq. İllərdən bəri həsrət qaldığımız torpaqlarımızın azad olunmasında fəal iştirak etdik. Vətən müharibəsinin birinci günü çox gərgin keçdi. Qısa müddət ərzində düşmənin hücumlarının qarşısını cəsarətlə aldıq. Döyüşlər nə qədər gərgin keçsə də, məqsədimizə nail olduq.*

Biz Füzuli istiqamətində vuruşurduq. İyirmi səkkiz ildən sonra döyüşlər başlamışdı. Nəyin bahasına olursa-olsun, qalib gəlməliydik. Bu, bizim Vətən və xalq qarşındakı müqəddəs borcumuz idi. Üzərimizə düşən bu borcu şərəf və ləyaqətlə yerinə yetirməliydik. Yetirdik də! Döyüşlərə də qələbə əzmi ilə başladıq. Füzuli istiqamətində bir neçə yaşayış məntəqəsini azad etdikdən sonra bizi Xocavənd rayonuna göndərdilər. Həmin vaxt bu istiqamətdə də gərgin döyüşlər gedirdi. Elə ilk günlərdən düşməni məğlub edib geri sıxışdırdıq. Getdikcə canlı qüvvə və zirehli texnikasını itirən düşmən zəifləyirdi. Zəifləsə də, tez-tez olub-qalan qüvvəsini döyüşlərə cəlb edib müqavimət göstərməyə çalışırdı. Amma işğalçıların bütün cəhdlərinin qarşısını qətiyyətlə aldıq. Şuşa uğrunda vuruşmaq çoxdankı arzum idi. Axır ki, bu arzuma çatdım. Xocavənd istiqamətində bir müddət vuruşandan sonra bizi Şuşanı işğalçılardan azad etməyə göndərdilər. İrəliyə atılan hər addım bizi qələbəyə yaxınlaşdırırdı. Şuşa uğrunda bütün gücümüzlə vuruşurduq. Axır ki, noyabr ayının 8-də Şuşa erməni işğalçılarından azad olundu. Füzulidən başlayan döyüş yolum Şuşada zəfərlə başa çatdı.



Vətən müharibəsində xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medallarına layiq görüldüm.

**Baş leytenant**
**Heydər FƏRMANLI**
**"N" hərbi hissəsi**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyinin məlumatı

Noyabrın 17-si saat 09:55-dən 14:45-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvlərinin Ağdam və Xocalı rayonları ərazilərində döyüş mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis tədbirləri icra etmələri ordumuzun bölmələri tərəfindən müşahidə edilib.

Bu kimi fəaliyyətlər Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladıqları üçtərəfli bəyanatın tələblərinin kobud şəkildə pozulmasıdır.

Həyata keçirilən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə ordumuzun bölmələri tərəfindən zəruri tədbirlər görülüb.

# “Bir ömürdə iki həyat yaşayıram...”



*İnsanın formalaşmasında aldığı təlim-tərbiyə ilə yanaşı, onu əhatələyən mühitin çox böyük rolu vardır. Mənəvi cəhətdən kamilləşdikcə həyatı daha dolğun və düzgün başa düşürsən.*

İnsan həyatının hər anı mübarizədir. Belə mübarizələr insanı kamilləşdirir, mətinləşdirir, reallaşması çətin, bəlkə də mümkün olmayan hesab edilən arzuların həyata keçməsinə aparır, daha parlaq gələcəyə səsləyir. Bu mübarizədən qalib çıxanlar ictimaiyyətdə də, ailədə də öz həyatını məqsədyönlü qurmağı bacarırlar.

Belə mübarizlərdən biri Hərbi Dəniz Qüvvələrinin baş miçmanı Mahrux İlham qızı Ağayevadır. 1990-cı ildə Astara rayonunun Pensər kəndində dünyaya göz açıb. Vətənsevər bir ailənin övladı olan Mahrux xanım 2008-ci ildə, bəlkə də, elə bu hisslərin təsiri ilə Vətən keşiyində dayanmağı özünə həyat amalı seçən gizir Rusif Ağayevlə ailə həyatı qurur. Hərb sənətinə ölçüyəgəlməz sevgisi və marağından danışan Mahrux xanım deyir ki, hər dəfə Rusifin hərbi mundirini sevgi ilə yuyub ütüləyər, onun peşəsi ilə qürurlanardım. "Bir gün özümün də bu formanı daşıyanlarla eyni sırada durmağın xəyalını qurardım. Hərbi hissədə onunla birlikdə qadınların da xidmət etdiyini bilirdim. Hətta bir dəfə bununla bağlı söhbətimiz də olmuşdu. İstəyimi deyəndə Rusif "Hərbçi olmaq çox çətindir", - demişdi. "Amma çox şərəflidir, qürurvericidir", - dedikdə gülümsəyərək mənə bu haqda düşünəcəyini bildirmişdi".

Şəhidlik çox uca bir məqamdır. O məqama yalnız seçilmişlər ucalırlar.

"Rusif 2016-cı ilin Aprel döyüşlərində şəhid oldu. Məni onun xidmət etdiyi hərbi hissədə keçirilən tədbirə dəvət etmişdilər. Tədbirdə olarkən komandanlıqdan burada xidmət etmək barədə təklif aldım. Onda yaram təzə idi. Bu da mənə normal düşünməyə imkan vermirdi. Hisslərimlə hərəkət edirdim. Ən böyük arxamı, dayağımı itirmişdim. Düşünürdüm ki, bu, mənə hədsiz dərəcədə ağır olar. Hər gün onun keçdiyi yollardan keçmək, onun iş yoldaşlarını görmək... Həyat öz axarı ilə davam edərkən onun olmaması mənim qəlbimi göynədirdi", - dedi Mahrux xanım.

Keçmiş xatirələri xatırlaya-xatırlaya sözlərinə davam edən şəhid xanımı dedi ki, Rusif şəhid olandan sonra dövlətimiz, Müdafiə Nazirliyinin rəhbərliyi, xidmət etdiyi hərbi hissənin komandanlığı və xidmət yoldaşları mənə və övladlarıma xüsusi diqqət və qayğı göstərdilər. Məni yenidən ayağa qaldıran da gördüyüm bu diqqət və qayğı oldu. Düşündüm ki, Rusifin əmanət qoyub getdiyi balaları yaşatmaq, onun adına layiq böyütmək üçün yaşamaq lazımdır...



Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Bu qayğının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin bu təbəqədən olan insanlara göstərdiyi qayğı, bu istiqamətdə yürütdüyü dövlət siyasəti, onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biridir ki, Mahrux xanım da dövlət tərəfindən mənzillə təmin olunub.

İki ili Rusifsiz arxada qoyub daha sakit düşünəndə görüb ki, onun xidmət etdiyi yerdə, dostlarının, yoldaşlarının yanında olmaq Mahrux xanıma daha yaxşı təsir edəcək.

"2018-ci ildə qərar verdim ki, mən elə məhz onun xidmət etdiyi hərbi hissədə xidmət etmək istəyirəm. Müdafiə Nazirliyi tərəfindən müraciətimə müsbət cavab verildi. Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu" keçərək xidmətə başladım...

Onun xidmət etdiyi hərbi hissədə xidmət etməyimlə qürurlanır, daim onun adına layiq olmağa çalışıram".

- Vətən müharibəsində Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu qazandığı Qələbə ilə bütün şəhidlərimizin qisasını aldı. Mənə elə gəlir ki, indi Rusifin də ruhu təsəlli tapıb. Çünki daha yuxularımda da onu narahat yox, gülümsəyən görürəm.

İnsan möhkəm iradə sahibi olmaqla yanaşı, həm də əzmkar olmalıdır. Arxasınca getdiyi işi layiqincə həyata keçirməlidir. Söhbətləşərkən baş miçman Mahrux Ağayevada da bu xüsusiyyətlərin şahidi oldum.

Əzm və iradə insan xarakterinin ən müsbət cəhətlərindən biridir. Bu cəhətlərə malik olan insanlar həyatda bir çox uğurlara nail olurlar. Hərbi xidmətdə olduğu müddətdə daim nizam-intizamı ilə seçilən xanım hərbi qulluqçu Zəfər bayramı ərəfəsində Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov tərəfindən baş miçman rütbəsinə layiq görülüb.

Mahrux xanım kövrəkliklə bildirdi ki, yaşasaydı Rusifə veriləcəkdi bu rütbə. Komandanlıq tərəfindən təltif olunarkən mənə elə gəldi ki, sanki Rusif də mənimlə rütbə alanların sırasında dayanıb...

Mahrux xanım dedi ki, Rusif çox vətənpərvər, qorxubilməz bir insan idi. Övladlarına danışdığı nağıllar belə Vətəni düşməndən qoruyan, azad edən qəhrəmanlar haqqında olardı. Tez-tez Mübariz İbrahimovdan danışardı. Övladlarına da Mübariz kimi vətənpərvər, igid, mərd olmağı arzulayardı.

O bu gün Müasir İnnovasiyalar liseyində təhsil alan övladlarının Vətənlərinə, atalarına layiq formalaşmasından, gələcəkdə Zəhranın həkim, Əlinin hərbçi olmaq istəyindən danışdı.

Atası ilə bağlı xatirələrini kövrəkliklə xatırlayan Zəhra Lənkəranda atasının dünyaya göz açdığı küçənin onun adını daşımasıyla qürurlandı. Əli də atasının yolunu davam etdirərək, onun adına layiq vətəndaş olacağına söz verdi...

Təkcə öz ömrünü deyil, Rusifin də ömrünü yaşayır Mahrux xanım. Rusifi yaşada-yaşada onun dünyasını da yaşadır. "Bir ömürdə iki həyat yaşayıram", - deyir Mahrux xanım...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Ordenli igidlərimiz*

# Vətənin məğrur oğlu

*Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Elnur Pirməmmədov öz ixtisasının peşəkarıdır. Tank əleyhinə raket kompleksinin komandiri olan Elnur daim öz bilik və bacarığını tabeliyində olanlarla bölüşür. Onların qurğu barədə həm nəzəri, həm də praktiki biliklərini zənginləşdirir.*

Elnur Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısıdır. O, 44 günlük haqq savaşımızda komandiri olduğu heyət ilə birlikdə düşmənə göz açmağa imkan verməyib. Dəqiq hesablamalar apararaq işğalçıların canlı qüvvə və texnikalarının, sığınacaqlarının, bölmələrinin, atəş nöqtələrinin koordinatlarını təyin edərək sərrast atəşlə məhv edib. Bunların nəticəsidir ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Elnur Pirməmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Uşaq vaxtlarından hərbi xidmətə böyük maraq göstərən Elnur söhbətimiz zamanı bildirdi ki, hər zaman hərbi mundiri geyinib Vətən müdafiəçisi olmaq istəyi ilə yaşayıb. "Ermənilərin xalqımızın başına açdığı faciələrdən, törətdiyi qırğınlardan məlumatlıydım. Yağıların xüsusi amansızlıqla soydaşlarımızı



qətlə yetirməsi qisas və nifrət hissimi artırırdı. Həmin andan etibarən hərbçi olacağıma və düşməndən qisas alacağıma qərar verdim. Müəyyən müddət keçdikdən sonra nəhayət, arzuma çatdım. Bütün cəsur oğullarımız kimi Azərbaycan Ordusunun sıralarına xidmətə gəldim. Vətən torpaqlarını göz bəbəyim kimi qoruyacağıma və onun uğrunda hər an canımı belə verməyə hazır olacağıma and içdim. O gündən içdiyim anda sadiq qalaraq, hərbi sirlərə dərindən yiyələndim. Çox keçmədi ki, həm komandirlərimin, həm silah yoldaşlarımın, həm də tabeçiliyimdəki əsgərlərin böyük hörmət və rəğbətini qazandım. Xidmətə başladığım ilk andan etibarən vəzifə borcumun öhdəsindən bacarıqla gəlməyə nail oldum, verilən bütün əmr və tapşırıqlara məsuliyyətlə yanaşdım. Məhz bunun nəticəsidir ki, qarşıya qoyulan istənilən döyüş tapşırıqlarının öhdəsindən asanlıqla gəlməyə qadirəm. Aprel döyüşləri, Tovuz hadisələri və Vətən müharibəsi bunun bariz nümunəsidir".

Əlbəttə, belə cəsur oğullarımızı tanıyandan sonra əmin oluruq ki, torpaqlarımızın müdafiəsi əmin əllərdədir. Elnur kimi mərd, cəsur və igid oğullarımız istənilən təxribatların qarşısını almağa və Vətənimizi düşməndən qorumağa qadirdirlər. Onlar kimi qəhrəmanlarımızın sayəsində torpaqlarımız işğaldan azad edildi və el-obalarından didərgin düşən həmvətənlərimizin geriyə dönüşü üçün qapılar açıldı.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Atasının döyüş yolunu davam etdirən oğul...





*Yolumuz Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış zabit Nurlan Zeynalovun yaşadığı ünvanadır.*

Bir az həyəcanlı olduğumuz üçün ünvanı tapmaqda çətinlik çəkdik. Buna görə şəhid atası Rəfail Zeynalovla telefonla əlaqə yaratdıq. O, yolumuza istiqamət verə-verə bizi qarşıladı. Şəhid atası ilə görüşüb, yaşadıqları ünvana yollandıq. Binalarına çatmağa beş-altı addım qalmış həyətdə "Şəhid bulağı" gördük. Rəfail Zeynalov dedi ki, bulaq Nurlanın xatirəsinə ehtiram olaraq bina sakinlərinin vəsaiti hesabına düzəldilib. Nurlan çox səmimi, qayğıkeş oğlan idi. Hamı ilə mehriban danışar, bacardığı qədər qayğı göstərərdi. Necə deyərlər, böyüklə böyük, kiçiklə kiçik idi. Nurlanın şəhid olması onu tanıyanların hamısını kədərləndirdi. Şəhid olandan sonra sakinlər "Şəhid bulağı" inşa etdilər. Qısa müddət ərzində tikinti işlərini başa çatdırdılar. Açılışda uşaqdan tutmuş böyüyə qədər hamı iştirak etdi.

Şəhid atası sözünü bitirəndən sonra biz də "Şəhid bulağı"ndan su içib, Nurlanın ruhuna dualar oxuyub, evlərinə qalxdıq.

Dəhlizdə, otaqlarda, hətta evdəki əşyalarda da qəribə bir kövrəklik hiss olunur. Valideynləri otaqların birində Nurlana guşə düzəldiblər. Onlar bu guşə ilə nəfəs alır, təskinlik tapırlar. Guşəyə Nurlanın müxtəlif illərdə, müxtəlif yerlərdə çəkdirdiyi şəkillərini qoyublar. Biz də maraqla guşədəki şəkillərə baxırıq. Yerindən, vəziyyətindən asılı olaraq Nurlan şəkillərinin hərəsində bir ovqatda düşüb. Hərbi formadakı şəkillərdə daha ciddi, daha ötkəmli, mülki şəkillərdə isə bəzən gülümsər, bəzən incə təbəssümlü. Şəkillərində Nurlanın üzündə adına münasib olan bir nur, bir işıq var. Bu nur, bu işıq onun çöhrəsindən heç vaxt çəkilməyəcək.

Sonra Nurlanın ömür və İkinci Qarabağ müharibəsindəki göstərdiyi qəhrəmanlıqla dolu döyüş yolu ilə tanış olduq. Atası ilə söhbət edəndə məlum olur ki, Rəfail Zeynalov da Birinci Qarabağ müharibəsinin iştirakçısıdır, müharibə veteranıdır. Bir ailədə ata Birinci Qarabağ müharibəsində, oğul isə İkinci Qarabağ müharibəsində vuruşub. Nurlan atasının yarımçıq qalmış döyüş yolunu davam etdirib.

Rəfail Zeynalovla söhbət edib, onun Birinci Qarabağ müharibəsində hansı istiqamətlərdə döyüşdüyü ilə maraqlandıq. Öyrəndik ki, o, Qarabağ hadisələrinin ən qaynar vaxtlarında Xankəndidə olub. Həmin günləri xatırlayan şəhid atası dedi:

- 1988-ci il fevral ayının 24-də erməni separatçıları Xankəndidə mitinq keçirib Qarabağın Ermənistana birləşdirilməsini tələb edəndə bizi hadisələrin qarşısını almağa göndərdilər. Həmin günlərdə Qarabağda vəziyyət gərgin idi. Sonradan bu mitinqlər qanlı döyüşlərə gətirib çıxartdı. Biz müharibədə də iştirak etdik. Ağdam, Cəbrayıl və Füzuli rayonlarının müdafiəsində dayandıq. Təəssüflər olsun ki, ermənilər bu ərazilərdə işğalçılıq planlarını həyata keçirə bildilər. Şəhər və kəndlərimiz ermənilər tərəfindən işğal olundu. Atəşkəsdən sonra xidməti yerimizə qayıtdıq. Birinci Qarabağ müharibəsindən 28 il sonra erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlandı. Nurlan ehtiyatda olan zabit kimi müharibəyə yollandı. Torpaqlarımızın erməni işğalçılarından azad olunmasında igidlik və qəhrəmanlıq göstərdi. 2020-ci il noyabrın 9-da Xocavənd rayonunun ərazisi uğrunda gedən döyüşlərdə şəhid oldu. Ertəsi gün isə artıq döyüşlər dayandırıldı, silahlar susdu...

Atanı dinlədikdən sonra cəsur zabit Zeynalov Nurlan Rəfail oğlunun ömür yolunu vərəqlədik. Nurlan 25 noyabr 1989-cu ildə Sabirabad rayonunda dünyaya göz açıb. Uşaqlıq illəri öz axarı ilə keçib. 1996-cı il sentyabrın 1-də valideynlərinin əlindən tutaraq dahi şairimiz Mirzə Ələkbər Sabirin adını daşıyan 1 nömrəli orta məktəbə gedib. Təhsil yollarında gələcəyə doğru kövrək addımlarını burada atıb. Zaman keçdikcə bu kövrək addımlar daha da möhkəmlənib. Orta məktəbi bitirəndən sonra ali təhsil almaq üçün Bakı şəhərinə üz tutub. Azərbaycan Memarlıq və İnşaat Universitetinə qəbul olub və 2011-ci ildə ali təhsilini bitirib. Gələcək həyat önündə geniş açılsa da, qarşıda onu hərbi xidmət gözləyirdi. Övladlıq borcunu yerinə yetirmək üçün Nurlan Vətənə əsgər olmalıydı, əyninə hərbi forma geyinməliydi, vətəndaşlıq borcunu yerinə yetirməliydi.

2011-ci ilin oktyabrında Nurlan Zeynalov böyük həvəslə, Vətənə əsgər olmaq arzusu ilə ordu sıralarına yollandı. Kiçik yaşlarından Nurlanın hərbi həyata böyük marağı var idi. Özü yaşa dolduqca ürəyindəki bu maraq da böyüyürdü. Artıq istəyinə çatmağın ikicə addımlığındaydı. Nurlanın əyninə əsgər forması geyindiyi gün həyatının ən unudulmaz günü oldu. Arzusuna çatan Nurlan xidmətinə böyük həvəslə başladı. Gənc əsgər kimi qısa müddət ərzində zəruri hərbi biliklərə yiyələndi. Həyatının qürur və iftixar dolu unudulmaz günlərini yaşadı.

Bir müddətdən sonra öz arzusu ilə əsgər Nurlan Zeynalov ehtiyat zabit hazırlıq kursuna oxumağa göndərilir. Nurlan zabit olmaq, çiyinlərində doğma ordumuzun paqonlarını gəzdirmək istəyir. Gələcəyin zabiti Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təşkil olunmuş kursda həvəslə oxuyur. Yeni biliklərə yiyələndikcə hərbi sahəyə olan marağı daha da artır. Arada valideynlərinə zəng vurur, dərslərinin gedişindən danışır, onlara böyük əminliklə zabit rütbəsi alacağını deyir. Sanki günlər çox sürətlə keçir. Zabitlik kursu yavaş-yavaş sona yaxınlaşır. Nurlan bütün sınaqlardan uğurla keçərək arzusuna çatır, zabit olur. Sevinə-sevinə valideynlərinə zəng vuraraq: "Məni təbrik edə bilərsiniz, artıq “leytenant” hərbi rütbəsini almışam, zabitəm" - deyir. Beləcə, Nurlanın zabitlik həyatı başlayır. 2013-cü ildə ordu sıralarından ehtiyata buraxılır.

2014-cü ildə Nurlan Sabirabad regional "ASAN" xidmət mərkəzində Notariat kontorunda aparıcı mütəxəssis kimi işə düzəlir. Elə sevgisi, məhəbbəti də burada qarşısına çıxır. Yeni düzəldiyi iş yerində Kübra adlı xanımla tanış olur və 2018-ci ildə onunla ailə həyatı qurur. Təcrübəsini nəzərə alaraq Nurlan Zeynalovu 2019-cu ilin iyununda atasının da çalışdığı Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutunda kadrlar şöbəsinin rəisi kimi işə götürürlər. 2020-ci ilin sentyabrında isə ermənilərin təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayır. Qəflətən alovlanan müharibə başqaları kimi Nurlanın da planlarını yarımçıq qoyur.

İkinci Qarabağ müharibəsi başlayan günün ertəsi Nurlan Zeynalov ehtiyatda olan zabit kimi könüllü olaraq döyüşlərə yollanır. Yollanır ki, vətəndaşı olduğu ölkəsinin işğalda qalmış torpaqlarını erməni işğalçılarından azad etsin. Nurlan Zeynalovun döyüş yolu Murovdağdan başlayır. Bir müddətdən sonra isə onları Füzuli istiqamətinə aparırlar. Həmin günlər Füzuli rayonunun ərazisində gərgin döyüşlər gedirdi. Burada möhkəmlənən düşmən geri çəkilmək istəmirdi. Buna görə ordu hissələri hücumlarına ara vermir. Nurlan əsgərlərini ardınca döyüşlərə aparır, komandanlığın əmr və tapşırıqlarını bacarıqla yerinə yetirir. Füzuli rayonu erməni işğalçılarından azad olunandan sonra Nurlanın xidmət etdiyi hərbi hissənin şəxsi heyəti Xocavənd istiqamətinə göndərilir. O, həmişə öndə vuruşur, əsgərlərini təhlükəsiz yollarla erməni qəsbkarlarının üzərinə aparır. Xocavənd rayonunun bir çox kəndləri, həmçinin Hadrut qəsəbəsi düşməndən azad olunur.

Getdikcə zəifləyən düşmən ağır itkilər verə-verə geri çəkilir. Nurlan döyüşlərə gəldiyi ilk günlərdən azad olunan ərazilərin gözəlliyinə heyran qalır. Bu yerlərin hər qarışı ona doğma gəlir. Uzun illər bu cür gözəl yerlərin işğalda qalmasına çox təəssüflənir. Qarabağın gözəl kəndlərini darmadağın etdiyinə görə düşmənə nifrət edir. Günlər keçdikcə kənd-kənd, ev-ev torpaqlarımız ermənilərdən azad olunur. Noyabrın 8-də Nurlan Qarabağın tacı olan Şuşanın azad olunduğunu eşidəndə sanki dünyanı ona verirlər. Ertəsi gün yenə də Xocavənd rayonunun ərazisi uğrunda döyüşlərə atılır. Amma təəssüflər olsun ki, Nurlan səhər ertədən başladığı döyüşü sona çatdıra bilmir. Həmin gün həm döyüş, həm də ömür yolu yarımçıq qalır. Erməni snayperin gülləsinə tuş gəlir. Nurlan Zeynalov dünyaya göz açdığı həyatda 31 il ömür sürdü. Amma şərəflə, ləyaqətlə yaşadı. Özündən sonra şərəfli bir iz qoydu.

Yaxınları Nurlanı Sabirabad rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırdılar. İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlığa görə Zeynalov Nurlan Rəfail oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, həmçinin "İgidliyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Nurlanın yaxınlarının, doğmalarının onunla bağlı xatirələrini də dinlədik. Atası Rəfail Zeynalov dedi:

- Nurlan hərəkətlərinə, sözlərinə çox ciddi fikir verən insan idi. Onun dilindən heç vaxt artıq bir söz çıxmazdı. Sirrini kimsəyə verməzdi, bir az qapalı idi. Həmişə özündən böyüklərlə yoldaşlıq edərdi. Lazım gələndə dost-tanışlarına ağıllı məsləhətlər verərdi. Bu xüsusiyyətinə görə tələbə yoldaşları zarafatla ona "dədə" deyərdi. Qəhrəmanlara, qəhrəmanlığa münasibəti çox müsbət idi. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adı dilindən düşmürdü. Döyüşlərə gedəndən sonra ara-sıra zəng edib danışardı. Amma harada, hansı istiqamətdə döyüşdüyünü deməzdi. Soruşanda deyirdi ki, təlimdəyik. Şəhid olduğunu eşidəndə elə bil dünya başıma uçdu. Oğul itirmək çox ağır dərddir. Yeganə təskinliyimiz odur ki, Nurlan torpaqlarımızın azadlığı uğrunda şəhid olub. 2019-cu ilin avqustunda qızı dünyaya gəlmişdi. Onun adını özününkünə yaraşdırıb Nuray qoymuşdu. Nuray ondan bizə qalan yeganə canlı yadigardır. Nurlanın xatirəsini dostlarım, iş yoldaşlarım çox əziz tuturlar. Onların hamısına minnətdarlığımı bildirirəm.

Bacısı Nuranə qardaşı haqqında çox danışmadı. Qısaca olaraq: "Mən həmişə qardaşımla fəxr edəcəm, onun qəhrəmanlığını, igidliyini heç vaxt unutmayacam", - dedi.

Şəhid anası Məleykə xanım oğlu haqqında danışdıqca göz yaşlarının saxlaya bilmir. Deyir ki, Nurlan döyüşlərə yola düşəndən sonra rahat günlərimizə son qoyuldu. Oğlum arada zəng vurub danışırdı. Bir dəfə danışanda güllə səsləri eşitdim. Soruşdum ki, ay Nurlan, deyirsən döyüşlərdə deyiləm, bəs o güllə səsləri nədir? Elə yenə də "təlimdəyik", - dedi. Noyabrın 9-da qapımızı oğlumun ölüm xəbəri döydü. Dünya başıma fırlandı. Ölüm xəbərini bizə deyənlərdən soruşdum ki, Nurlan necə şəhid oldu, axı o, döyüşə getməmişdi, əsgərlərə təlim keçirdi.

Məlum oldu ki, oğlum elə cəbhə bölgəsinə gedən gündən döyüşə yollanıb. Sadəcə olaraq, mən narahat olmayım deyə belə edib. Oğlum ölümü ilə bizim sevinc dolu dünyamızı da özü ilə apardı. İnanıram ki, Nurlan xatırlandıqca xatırlanacaq, daim yaddaşlarda yaşayacaq. Onun İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıq, igidlik dillərdən düşməyəcək.

Şəhid atasının işlədiyi Müdafiə Sənayesi Nazirliyində də şəhidlərin xatirəsi əziz tutulur. Vətən müharibəsində nazirliyin 3 əməkdaşı şəhid olub. Onların şərəfinə nazirliyin həyətində abidə qoyulub. Bundan əlavə, "Tarix yazan qəhrəmanlar" adlı kitab nəşr olunub. Kitabda şəhidlərin keçdiyi ömür və döyüş yolları ətraflı işıqlandırılıb. Nurlanın bir ildən çox çalışdığı Milli Aerokosmik Agentliyinin həyətində onun və Birinci Qarabağ müharibəsi şəhidinin şərəfinə bulaq tikilib. Bütün bunları şəhid ailəsindən eşidəndə bir daha əmin olduq ki, dövlətimiz hər zaman şəhid ailəsinin yanındadır. Onlara daim diqqət və qayğı göstərilir.

Nurlanın doğmaları ilə sağollaşıb evlərindən çıxırıq. Şəhidin şərəfinə tikilmiş bulağın qarşısında baş əyib bayaq gəldiyimiz istiqamətlə də geri qayıdırıq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Ümummilli Lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi

**Suallar:**

**1. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir.**

**2. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.**

### Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir

Dünyanın siyasi səhnəsində dövlətlərin uzunömürlü olması ilk növbədə onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasının olmasından asılıdır. Hələ min illər əvvəl Azərbaycan amili bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilmişdir.

Tarixi dönəmlərdə bu ideyanın inkişaf etdirilməsinə zərurət getdikcə daha da gücləndirildi. Bunun ən bariz tarixi nümunəsi XX əsrin əvvəllərində gerçəkləşdirildi. Belə ki, 1918-ci ildə qurulan və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası daha da inkişaf etdirildi. Təsadüfi deyil ki, azərbaycançılıq ideologiyası həm də birləşdirici bir məfhum hesab olunur. Bu da ondan irəli gəlir ki, azərbaycançılıq ideyası ətrafında etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşir. Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul edirlər. Azərbaycançılıq ideyasının fundamental əsaslarından birini də məhz bu faktor təşkil edir. Bu baxımdan bu ideya, demək olar ki, əhalinin bütün spektrini əhatə edir.

Əslində azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək tarixi zərurət forması əldə etdi.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin, Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidləri, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir.

Azərbaycançılıq ideologiyası bir tərəfdən Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan, türk dövlətləri arasında səmimi və qarşılıqlı faydalı tərəfdaşlığın olduğunu daim nümayiş etdirir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirirdi. O, həm də yaxşı dərk edirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəylik konsepsiyasına çevrildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Özü də bu, hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar olub. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında azərbaycançılığın, öz milli mənsubiyyətin, milli-mənəvi dəyərlərin qorunub saxlanması haqqında demişdir: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında da parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdur. Bunu böyük tarixi şəxsiyyətin Dünya Azərbaycanlılarının Qurultayındakı nitqi də sübut edir. Ulu Öndər Heydər Əliyev qurultaydakı çıxışında demişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik".

### Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və azərbaycançılıq məfkurəsi

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası bu gün də mövcuddur. Bu ideya ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir.

Ulu Öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.

Hələ sovet dövründə respublika rəhbəri işləyərkən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir: Hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə Ulu Öndər Heydər Əliyev müstəqilliyin əsasını qoymuşdu.

Ulu Öndər yorulmadan Azərbaycanın hər bir guşəsinə səfər edir, inkişafla maraqlanır, insanların həyat tərzi ilə tanış olurdu. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıyaraq, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı.

Qüdrətli şəxsiyyət Azərbaycan dilinin, tarixinin ədəbiyyat və mədəniyyətinin yeni - azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli Fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi. Bu tarixi sənədlər artıq yeni əsrin və üçüncü minilliyin əvvəllərində ana dili uğrunda mübarizənin dövlət səviyyəsində milli müstəqillik uğrunda mübarizənin - azərbaycançılığın tərkib hissəsi kimi əks etdirən dövlət proqramları - böyük strategiyanın təməl faktları idi.

Ulu Öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini, heç şübhəsiz, ordu quruculuğu təşkil edir. Bu istiqamətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev fəaliyyətinin qlobal miqyası Azərbaycanın bugünkü reallıqları ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasından əzəmətli görünür. Belə ki, hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik edən Ulu Öndərimizin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlər bu gün öz tarixi təsdiqini tapmaqdadır. O vaxtlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi.

Müstəqillik illərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz Ulu Öndər Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyətin nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ulu Öndərin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndərin xatirəsinə ehtiramın təzahürüdür. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Gənc zabitlərimiz*

# Zəfər sədaqətlə yaşadılacaq

Maraq istəyə dönür, istək - həyat yoluna. Ona görə həyat yoluna ömür yolu da deyirlər - ömür yolu istək yoludur.

Ötən əsrin sonlarından etibarən gənclərin peşə seçiminə Ermənistanın işğalçılıq siyasətinin, Azərbaycandan ərazi iddiasının, bunun davamı kimi ədalətsiz müharibənin də böyük təsiri olub. Hərbçi peşəsinə maraq göstərənlər, hərbçi peşəsini seçənlər çoxalıb.



Möhsüməli Cəfərov Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olub. Orta məktəbdə oxuyanda tarix müəlliminin ermənilərin ötən əsrin əvvəllərində Bakıda, Naxçıvanda, Qubada, Şamaxıda,.. törətdiyi kütləvi qırğınlardan, bu qəddarlığın başqa formada əsrin sonunda da törədildiyini öyrənəndə digərləri kimi Möhsüməlinin də yumruğu düyünlənmişdi, "Qisas qiyamətə qalmır, müəllim...", - demişdi. Müəllimin əli onun çiyninə enmişdi...

Hərbçi olmağı qərara alanda ona tarix müəllimi də xeyir-dua vermişdi...

Möhsüməli Cəfərov 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil oldu. Oranı bitirdikdən sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) davam etdirdi. 2017-ci ildən qoşunlarda xidmət edir.

- Ali Hərbi Məktəbdə Hərbi and içəndə digər kursantlar kimi mən də həyəcanlı idim. Yüksək rütbəli zabitlərin, valideynlərin, hətta sevgililərlə tədbirə gəlmiş uşaqların qarşısında Vətənə sədaqətlə xidmət edəcəyimizə and içirdik. Qəbul imtahanından sonra Şəhidlər xiyabanında 10 nəfər gənc Vətən naminə canımızı əsirgəməyəcəyimizə and içmişdik. O andımız Hərbi Andımızı rəsmən tamamladı..., - baş leytenant Möhsüməli Cəfərov dedi.

Gənc zabit müxtəlif hərbi hissələrdə xidmət edib. Artilleriyaçıdır. İkinci Qarabağ müharibəsi iştirakçısıdır.

- Batareyamız müharibədə komandanlığın əmrlərini vaxtında və dəqiq yerinə yetirirdi. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə batareyamızın dəqiq atışlarının mövqe qələbələri qazanılmasında mühüm əhəmiyyəti oldu. Atışlarımız düşmənin mövqelərini, dayaq məntəqələrini dağıtdı, döyüş texnikalarını, canlı qüvvəsini sıradan çıxartdı.

Batareya Qubadlı uğrunda gedən döyüşlərdə də fərqlənib. Düşmənin mövqelərinə dəqiq artilleriya atışları aparan batareyanın döyüş fəaliyyəti bəyənilib.

Baş leytenant Möhsüməli Cəfərov İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Zabit əminliklə deyir ki, Zəfər heç zaman unudulmayacaq, bizdən sonra xidmət edənlər ərazi bütövlüyümüzü sədaqətlə qoruyacaqlar.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan silahlı qüvvələrinin bölmələrində son vaxtlar fərarilik halları yenə də artmaqdadır.

Bu günlərdə daha 4 hərbi qulluqçu xidmət yerini özbaşına tərk edib.

Erməni hərbçiləri mütəmadi olaraq döyüldüklərinə, fiziki və mənəvi təhqirlərə məruz qaldıqlarına görə bu addımı atıblar. Hadisə Erməistanın Gorus rayonunun Xndzoresk yaşayış məntəqəsi istiqamətində yerləşən bölmələrindən birində baş verib.

Hadisə ictimaiyyətdən gizlədilir. Lakin hərbi hissə komandirinin məktubuna əsasən, fərarilik edən hərbçilərin axtarılması və tapılaraq xidmət yerinə qaytarılması ilə bağlı hərbi polis tərəfindən tədbirlər görülür.

Faktla bağlı cinayət işi başlanılıb.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində təlim-məşq zamanı baş verən hadisə nəticəsində bir neçə hərbi qulluqçu yaralanıb.

Ermənistanın Gorus rayonu ərazisindəki təlim sahəsinə çıxarılan ehtiyat bölmələrin şəxsi heyəti ilə keçirilən məşğələ zamanı qumbaraatan mərmisi partlayıb.

Ehtiyatsızılıq səbəbindən baş verən partlayış nəticəsində bir neçə erməni hərbçisi yaralanıb. Müxtəlif dərəcəli bədən xəsarətləri alan hərbi qulluqçular tibb məntəqəsinə yerləşdirilib.

Hadisə ictimaiyyətdən gizlədilsə də, faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

* * *

Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinin üzvləri içkili vəziyyətdə avtoqəza törədiblər.

Böyük həcmdə spirtli içki qəbul edən qanunsuz erməni silahlı dəstəsinin 3 üzvü avtoqəzaya düşüb.

Ağır yol nəqliyyat hadisəsi nəticəsində qanunsuz dəstənin bir üzvü hadisə yerində ölüb. Digər "könüllü"lər isə ağır yaralanıb.

Hadisədən bir neçə gün keçməsinə baxmayaraq, Xankəndində tibb məntəqəsinə yerləşdirilən digər iki ermənin vəziyyəti həkimlər tərəfindən ağır qiymətləndirilir. Məlumat ört-basdır edilsə də, qəza və ölüm faktı ilə əlaqədar hərbi polis tərəfində araşdırmaya başlanılıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# Zirehli təcili tibbi yardım (ambulans) maşını

Türkiyənin "Katmercilər" şirkəti tərəfindən istehsal edilən zirehli ambulans Türkiyə Silahlı Qüvvələri və hüquq-mühafizə orqanlarının tələbatını ödəmək məqsədi ilə hazırlanıb. Şirkət zirehli təcili tibbi yardım maşınını - ambulansı ilk dəfə "IDEF-2017" sərgisində nümayiş etdirib.

Ambulans NATO standartlarına uyğun, yüksək ballistik qorumaya, mina və əl qumbaralarına qarşı gücləndirilmiş gövdəyə və 4x4 təkər formuluna malikdir.



"Ford F550" şassisi üzərində yaradılan zirehli ambulans təhlükəli ərazilərdən yaralı döyüşçülərin ilkin tibbi yardımı və təxliyəsi məqsədi ilə yaradılıb. Ambulansın daxilinin genişliyi həkimlərə ayaqüstə rahat əməliyyat aparmağa imkanı verir.

Zirehli ambulansın sürücüsü, 2 tibb heyəti və 5 xəstə də daxil olmaqla, 8 nəfəri daşımaq qabiliyyətinə malikdir. 300 at gücündə mühərrikə sahib olan maşın hər cür yol və hava şəraitində hərəkət edə bilir. Sürücünün, tibb heyətinin və xəstələrin təhlükəsizliyini tam təmin edən zirehli ambulans istənilən döyüş şəraitində istifadə oluna bilər.




"Katmercilər" şirkətinin nümayəndəsi mətbuata gələcək perspektivdən danışarkən bildirib ki, hədəfimiz 6x6 və 8x8 təkər formullu zirehli maşınlar istehsal etməkdir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### London üç hərbi gəminin inşası üçün Madridlə 1,8 milyard dollarlıq müqavilə imzalayıb



Böyük Britaniya İspaniyanın Navantia gəmiqayırma şirkətinin başçılıq etdiyi konsorsiumla üç hərbi-nəqliyyat gəmisinin tikintisi üçün 1,6 milyard funt sterlinq (təxminən 1,8 milyard dollar) dəyərində müqavilə imzalayıb.

Financial Times qəzeti xəbər verir ki, Navantia tərəfindən tikiləcək gəmilər "təyyarədaşıyıcıları və esminesləri avadanlıq, sursat və ərzaqla təchiz etmək" üçün nəzərdə tutulub. Tikinti işləri 2025-ci ildə Böyük Britaniya və İspaniyada eyni vaxtda başlayacaq. Hər üç gəminin yekun montajı 1912-ci ildə batmış Titanik gəmisinin inşa edildiyi Belfastdakı tarixi gəmiqayırma zavodunda olacaq.

Müqavilə ilə bağlı rəqabətdə Navantia Britaniya gəmi istehsalçıları - BAE Systems və Babcock International şirkətlərini üstələyib ki, bu da Birləşmiş Krallıqdakı həmkarlar ittifaqlarının mənfi reaksiyasına səbəb olub. Krallığın müdafiə naziri Ben Uolles bu cür qorxuların əsassız olduğunu bildirib.

"Bu müqavilə Britaniya gəmiqayırma zavodlarında 1,2 min iş yeri yaradacaq, konsorsium da 77 milyon funt sterlinq (təxminən 88 milyon dollar) sərmayə qoyacaq", - nazir belə deyib. Onun sözlərinə görə, "belə əməkdaşlıq gəmilərin vaxtında və büdcə çərçivəsindən kənara çıxmamaqla inşasına imkan verəcək, bu da Britaniya gəmiqayırma sənayesinin heç vaxt edə bilmədiyi bir işdir".

### KXDR Yapon dənizi istiqamətində daha bir ballistik raket buraxıb



Koreya Xalq Demokratik Respublikası (KXDR) noyabrın 17-də Yapon dənizi istiqamətində qısamənzilli ballistik raket buraxıb.

Bu barədə Yonhap agentliyi Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahına istinadla məlumat yayıb. Raketlərin Şimali Koreyanın şərq sahilində yerləşən Vonsan şəhərindən yerli vaxtla saat 10:50 radələrində buraxıldığı bildirilir.

Bu, ABŞ, Cənubi Koreya və Yaponiya liderlərinin Kambocada keçirilmiş üçtərəfli görüşündə Prezident Cozef Baydenin müttəfiqlərin müdafiəsi üçün bütün hərbi imkanlardan istifadə olunacağı ilə bağlı bəyanatından sonraya təsadüf edir.

Qeyd edək ki, Pxenyan sentyabrın 25-dən bəri 40-dan çox müxtəlif tip, o cümlədən qısa və ortamənzilli raket buraxıb.

### Xorvatiya Ukraynaya 14 helikopter verəcək



Xorvatiyanın Müdafiə Nazirliyi 14 ədəd Mi-8 və Mi-8 MTV helikopterlərinin Ukraynaya verilməsi ilə bağlı razılığa gəlib.

Ukrayna KİV-ləri xəbər verir ki, sovet və rus istehsalı olan helikopterlər 2026-cı ilə qədər istismardan çıxarılacaq. Artıq əsaslı təmir işləri aparılmayacaq.

Xorvatiya rəhbərliyi "Black Hawk" helikopterlərinin satışı ilə bağlı razılığa gəlmək üçün ABŞ-la məsləhətləşmələr aparıb. Onlar Ukraynaya veriləcək Mi-8-i əvəz etməyi planlaşdırırlar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

*Fiziki hazırlıq*

# İdman döyüş qabiliyyətini də yüksəldir





*Gənc nəslin formalaşmasında idmanın böyük əhəmiyyəti var. Buna görə də hərbi xidmətdə fiziki hazırlıq məşğələsi, nizam qaydaları ilə tənzimlənir.*

Ordu quruculuğunun ən mühüm tərkib hissələrindən biri də döyüş hazırlığıdır. Döyüş hazırlığı həm də fiziki hazırlıqla yüksəldilir. Əsgərlərin fiziki hazırlıqlarının yüksək səviyyədə saxlanılması onların döyüş hazırlıqlarının səviyyəsini müəyyənləşdirir.

Fiziki hazırlıq idmana maraq da yaradır, əsgərlər idmanın bu və ya digər növləri ilə ciddi məşğul olurlar. Əvvəlcə hərbi hissədə, sonra birləşmələr arasında keçirilən yarışlarda iştirak edirlər.

Azərbaycan Ordusunda fiziki hazırlıq şəxsi heyətin formalaşmasında mühüm rol oynayır. Hərbi qulluqçuların idman məşğələləri planlaşdırılır, sonra həyata keçirilir: səhər gimnastikası, isinmə hərəkətləri, kütləvi idman tədbirləri, yarışlar, eyni zamanda, asudə vaxtlarda fiziki göstəriciləri artırmaq üçün yaradılan əlavə məşğələlər hərbi qulluqçuların fiziki baxımdan formalaşmasında əhəmiyyətli olur.

İkinci Qarabağ müharibəsində Azərbaycan əsgəri döyüş hazırlığı ilə bərabər fiziki hazırlığı ilə də döyüşləri qələbəylə tamamladı, Ali Baş Komandanın döyüş əmrini sədaqətlə yerinə yetirdi.

"N" hərbi hissəsində də əsgərlər fiziki hazırlıq məşğələsində fəal iştirak edirlər. Onlar təlimata uyğun, tapşırılan hərəkətləri məsuliyyətlə yerinə yetirirlər. Bilirlər ki, hər bir hərəkət ayrılıqda da, vəhdətdə də fiziki hazırlıq üçün gərəklidir. Baş leytenant Aydın Niftəliyevin nəzarəti altında əsgərlər bir neçə idman hərəkətini yerinə yetirdilər. Zabit dedi ki, hərbi qulluqçuların döyüş və taktiki vəzifələrin yerinə yetirilməsində fiziki hazırlıq əhəmiyyətidir. Hər bir hərbi qulluqçu bilir ki, çətin relyefə malik ərazilərlə rastlaşanda yüksək fiziki göstəricilərə görə döyüş tapşırıqlarını vaxtında və düzgün yerinə yetirəcəklər.

Əsgərlər də fiziki hazırlığın əhəmiyyətindən danışdılar. Söhbət zamanı əsgər Orxan Tağıyev dedi: "Biz qüdrətli ordunun əsgəri olaraq nizam-intizamla bir sırada fiziki hazırlığımızı da yüksək səviyyədə saxlayırıq".

Əsgər Adəm Qasımov yoldaşının sözlərinə qoşularaq dedi: "Ordumuzda xidmət edən hər bir hərbi qulluqçu ilkin olaraq sağlam olmalıdır, bunun üçün idmanla daim məşğul olmalıdır".

Əsgərlərin düşüncələri onların həm hərbi xidmətə sevgisinin təsdiqi idi, həm də idmana münasibətinin.

**Leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Asudə vaxt*

# "Həm istirahət edir, həm də maariflənirik"



Dağların zirvəsində Vətənimizi qoruyanların yanındayıq bölmədəyik. Ətrafda sakitlikdir. Hamı verilən tapşırıqların icrası ilə məşğuldur. Bölmədəki səliqə-sahman, təmizlik və şəxsi heyətin nizam-intizamı xidmətin düzgün təşkilindən xəbər verir. Əsgərlərin asudə vaxtlarını necə keçirmələri ilə maraqlanıram.

Zabit Mustafa Əsgərli ilə yataqxanaya tərəf gedirik. Əsgərlərdən bir neçəsinin qəzet, jurnal və kitab oxuduqlarının şahidi oluram. Zabit bildirdi ki, şəxsi heyətin asudə vaxtının səmərəli təşkili komandirlər tərəfindən daim diqqətdə saxlanılır. "Biz çalışırıq ki, əsgərlərimiz daha da maariflənsinlər, dünyagörüşlərini artırsınlar. Bunun üçün bütün bölmələrimiz müxtəlif bədii kitablarla, qəzet və jurnallarla təmin olunur. Bundan əlavə dama və şahmat oyunları, tariximizdən, qəhrəmanlardan, vətənpərvərlikdən bəhs edən filmlərin nümayişini də təşkil edirik. Bir sözlə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına müsbət təsir edən asudə vaxtlarını elə təşkil edirik ki, mənəvi və estetik mədəniyyətlərini daha da yüksəltsinlər. Döyüş hazırlığı kimi bu vəzifə də üzərimizə düşən mühüm tapşırıqlardandır".

Əsgərlərə nəzər yetirdik. Həvəslə oxuyur, oxduqlarını müzakirə edirlər. Kimi "Azərbaycan Ordusu" qəzetini, kimi bədii kitabı, kimi müxtəlif sahələrdən yazılan jurnalları... oxuyur. Bölmədəki müsbət aura deyir ki, hər kəs xidmətdən, yaradılan şəraitdən razıdı. Həm də şəxsi heyət arasında sağlam mühitin, mehribançılığın olduğu açıq-aşkar görünür. Əsgərlərlə salamlaşıb, həm onları yaxından tanıyır, həm də düşüncələrini öyrənirəm. Əsgərlər Himayət Mehdiyev, Ramil Hüseynov, Ramin Ağayev və digərləri xidmətlərinin uğurla davam etməsindən, Vətənin keşiyində dayanmağın qürurundan, asudə vaxtlarının səmərəli keçirilməsindən danışırlar. "Əsgər olan hər gənc kimi biz də qürurluyuq. Vətənin keşiyində ayıq-sayıq xidmət aparırıq. Xidmətimizi layiqincə yerinə yetirmək üçün hər cür şəraitimiz var. Bütün təminatlarımız yüksək səviyyədədir. Digər fəaliyyətlərimiz kimi asudə vaxtlarımız da yüksək səviyyədə təşkil olunur. Həm istirahət edir, həm maariflənir, həm də maraqlı diskussiyalar aparırıq. "Azərbaycan Ordusu" qəzetindən Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunan bölgələrə səfərlərini, silahdaşlarımız haqqında yazılan məqalələri, reportajları maraqla oxuyuruq. Bizə göstərilən diqqət və qayğıdan, sosial-məişət şəraitimizdən hər birimiz razıyıq. Fəxr edirik ki, rəşadətli Azərbaycan Ordusunun əsgərləriyik".

Çətin reylefdə, uca dağların qoynunda torpaqlarımızı qoruyan əsgərlərlə görüş yaddaqalan olur. Onların səmimi və maraqlı söhbətləri, bilikləri və dünyagörüşləri bizə xoş ovqat aşılayır. Bu da bölmədə xidmətin düzgün təşkilinin və şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasının göstəricisidir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Taekvondoçumuz dünya çempionatının bürünc medalını qazanıb



Azərbaycan milli komandası Meksikanın Qvadalaxara şəhərində keçirilən taekvondo üzrə dünya çempionatında ilk medalını qazanıb.

Yığmamızın aktivinə mükafatı Cavad Ağayev əlavə edib. Belə ki, 68 kiloqram çəki dərəcəsində yarışan idmançımız mundialda mübarizəyə otuz ikidəbir finaldan başlayıb. Avropa çempionumuz ilk döyüşdə tailandlı Ço Çaiçonla üz-üzə gəlib. Rəqibinə 2:0 hesabı ilə qalib gələn C.Ağayev növbəti döyüşdə eyni hesabla polşalı Mateuş Şzesnovskini məğlub edib.

Səkkizdəbir finalda özbəkistanlı Uluqbek Raşitova, növbəti sınağında iordaniyalı Zaid Mustafaya 2:1 hesabı ilə qalib gələn idmançımız final uğrunda cənubi koreyalı Do Yun Kvona uduzduğu üçün yarışı bürünc medalla başa vurub.

Qeyd edək ki, dünya çempionatı noyabrın 20-də başa çatacaq.

## Boksçumuz dünya çempionatında ikinci qələbəsini qazanıb



İspaniyanın Alikante şəhərində gənc boksçular arasında dünya çempionatı davam edir.

Millimizin üzvü Sənan Hətəmov (67 kq) mundialda ikinci döyüşünü də qələbə ilə başa vurub.

İlk görüşdə Neri Kanavirini (Boliviya) mübarizədən kənarlaşdıran boksçumuz on altıdabir final çərçivəsində kanadalı Yakub Blaislə üz-üzə gəlib. Gərgin keçən döyüşdə təmsilçimiz rəqibini 4:1 hesabı ilə məğlub edib.

O, səkkizdəbir finalda qazaxıstanlı Nurbek Mursalla qüvvəsini sınayacaq.

Qeyd edək ki, 89 ölkədən 684 (476 oğlan, 208 qız) boksçunun mübarizə apardığı mundialda qaliblərin adlarına noyabrın 25-26-da aydınlıq gələcək.

## Rahilə Hüseynzadə Türkiyədə keçirilən xatirə turnirində bürünc medal qazanıb



Türkiyənin paytaxtı Ankarada keçirilən ağır atletika üzrə üçqat Olimpiya çempionu Naim Süleymanoğlunun xatirəsinə həsr olunmuş beynəlxalq turnir davam edir.

Noyabrın 15-dən 17-dək keçirilən yarışda 16 ölkədən 72 atlet çıxış edir. Onların arasında Azərbaycan yığmasının üzvləri də var.

Komandamızdan körpücük üzərinə son olaraq "Zirvə" Beynəlxalq İdman Klublarının nümayəndəsi Rahilə Hüseynzadə çıxıb. O, 76 kiloqram çəki dərəcəsində yarışıb. Atletimiz birdən qaldırma hərəkətində 82 kiloqramla və təkanla qaldırmada isə 97 kiloqramla 4-cü yeri tutub.

Ümumilikdə 179 kiloqram (82+97) nəticə göstərən Rahilə Hüseynzadə yekun sıralamada 3-cü olaraq bürünc medal qazanıb.

Azərbaycan yığması yarışı 6 medalla başa vurub. Rahilə Hüseynzadədən başqa Nazilə İsmayılova (Mərkəzi Ordu İdman Klubu) 49 kiloqram çəki dərəcəsində 3 bürünc, Tehran Məmmədov ("Buta" Ağır Atletika Klubu) 67 kiloqram çəki dərəcəsində və Ömər Cavadov ("Zirvə" Beynəlxalq İdman Klubları) 73 kiloqram çəki dərəcəsində birdən qaldırma hərəkətində gümüş medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Vahid MƏHƏRRƏMOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1101
Nüsxə 4740